# Qloballaşma və iqtisadi inteqrasiyasının yeni üfüqləri

Çünki 1944-cü ildə Bretton-Vud (1-25 iyul) toplantısında dünya ölkələri başçılarının imzaladıqları saziş ilə əslində dünya iqtisadiyyatında dolların hegemonluğu başladı və demək olar ki, qloballaşmanın startı verildi. Təbii ki, XX əsrin ortalarından başlayan elmi-texniki inqilab məhsuldar qüvvələrin inkişafında köklü dəyişikliklərə səbəb olmuşdur. Bu inqilab insanların yaşayışı və həyatı üçün zəruri olan nemətlər bolluğuna gətirib çıxarmış və sosial həyatın bütün sferalarında ciddi pozitiv dəyişikliklər əmələ gətirmişdir. Eyni dərəcədə qloballaşma insanlığı yeni-yeni motivlərlə üzləşdirmişdir. Yəqin ki, bu səbəbdən məşhur Amerika politoloqu Z.Bjezinski XX əsri "meqaölüm" dövrü adlandırmış, qloballaşma prosesinin heç də hamının düşündüyü kimi arzulanan nəticələr verməyəcəyinə işarə etmişdir.

*Müasir dövrdə bəşər övladının üzləşdiyi problemlər sırasında qloballaşma ön sırada durur. Ancaq bu qaçılmaz prosesin hələ ki, nə tam açıqlaması, nə də ki, başlanğıc dövrü və tamamlanacağı müddət haqqında elmi mənbələrdə qənaətbəxş cavab tapmaq mümkün deyildir. Politoloqlar, sosioloqlar qloballaşmanın mahiyyətini və məzmununu müxtəlif mövqedən qiymətləndirməklə başlanğıcını "Marşall planı"nın (5 iyun 1947-ci il) həyata vəsiqə alması ilə bağlayırlar. Bu yanaşma tərzi ilə qismən razılaşmaq mümkündür.*

Bu gün qloballaşmaya ümumi mənada dünyalaşma və ya qlobal inteqrasiya kimi tərif verilir: "Qloballaşma - ölkələr arasındakı iqtisadi, sosial və siyasi əlaqələrin inkişafı, fərqli cəmiyyətlərin və mədəniyyətlərin inanc və görüşlərin tanınması, millətlərarası əlaqələrin genişlənməsi kimi fərqli görünən, lakin bir-birilə bağlı məsələləri birləşdirən bir anlayışdır" (T.Vəliyev. Azərbaycan və qloballaşma prosesi. (Azərbaycan Respublikası qloballaşma prosesində. Elmi konfransın materialları. B.2005. s.280)). Başqa bir ifadə ilə, qloballaşma ölkələrin sahib olduqları maddi və mənəvi dəyərlərin çərçivəsində əmələ gəlmiş münasibətlərin, milli hüdudları aşaraq dünya səviyyəsində yayılması və fərqliliklərin bütünlük və uyğunlaşma adı altında birləşməsidir. Bu o deməkdir ki, həyatımızın elə bir sferası yoxdur ki, qloballaşmanın təsirinə məruz qalmasın. Son dövrlər dünya iqtisadiyyatında qloballaşma prosesi daha sürətli və gözədəyəndir. Bu zəmində dünya ölkələrinin sərbəst şəkildə dünya bazarına inteqrasiya olunması və bunun üçün lazım olan şərtlərin daha da əlverişli edilməsidir. Qloballaşan dünyada dövlətin sabaha hansı siyasətlə getməsi, hansı maraqları güdməsi birmənalı qarşılanmır. Çünki, qloballaşma prosesləri milli iqtisadiyyatın imkanların məhdudlaşdıraraq bilavasitə iqtisadi siyasətə təsir göstərir bəşəriyyət özünün salamat qalması, planetimizin qorunub saxlanılması məqsədi ilə iqtisadi, siyasi, milli-etnik problemlərin birlikdə həll edilməsinin zəruriliyini artıq dərindən dərk edir. Bütün bunlar dünya inkişafının yeni yollarının işlənib hazırlanmasını tələb edir.

Təbii ki, qloballaşma və regionlaşma dünya təsərrüfatını "bütövlüyə" aparır. Bununla yanaşı, bu prosesdə ziddiyyətlik təmayülləri bəşəriyyətin parçalanmasına səbəb olur.

Qloballaşma artıq çoxdan başlamış və hal-hazırda da əhatə etdiyi miqyası getdikcə böyüyən bir prosesdir. Artıq bu gün iqtisadi qloballaşma prosesinin bu cür inkişafının nəticəsi kimi müsbət və mənfi yöndə baş vermiş faktlar da göstərmək mümkündür və bu da öz növbəsində qloballaşmaya istiqamətlənmiş münasibətlərdə fikir ayrılığı yaratmışdır belə ki, bu gün müasir iqtisadi qloballaşma prosesinə münasibətdə iki, prinsipcə fərqli yanaşma mövcuddur.

Bunlar qlobalist və antiqlobalist yanaşmalardır.

Qloballaşma - dünya inkişafının məntiqi nəticəsidir və onunla da, təbii ki, tarix başa çatmır. Tarix - bəşəriyyətin ən böyük yaradıcılıq aktı kimi davam edir və bitməzdir. Qloballaşma isə yalnız onun müasir dövrümüzü əhatə edən bir inteqrasiya epoxasıdır. Dünyanın qloballaşma ilə dövrələnən inkişafı - onun yenidən imperiyalaşma yox, sivilizasiyalaşma istiqamətində hərəkətini məntiqi sayır. İmperiyalaşma - dünyanın köhnəliyə qayıtması, sivilizasiyalaşma - onun yeniləşməsidir. Respublikamız qloballaşma prosesinə "yanacaq - xammal ölkəsi" kimi qoşulmuşdur. Neft strategiyasının reallaşması uzun müddət ölkəmizin iqtisadi inkişafının başlıca mühərriki olacaqdır. Bununla yanaşı, qloballaşma prosesində respublikamız özünün nadir coğrafi mövqeyindən səmərəli istifadə edir. "Avrasiya dəhlizi" adlanan marşrutların respublikamızın ərazisindən keçməsi ölkəmizin nəqliyyat coğrafiyasının dünya nəqliyyat sisteminə inteqrasiyasına səbəb olur.

**Taleh MƏMMƏDOV**


ƏDƏBİYYAT

1. Иванов.Н. Глобализация и проблема оптимальной стратегии развития. (Мировая экономика и международные отношения) М.2000
2. Шаклеина Т.И. Россия и США в новом мировом порядке. М.2005
3. R.Mehdiyev. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. B.2005
4. Ə.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B.2005.